# RƏŞADƏT VƏ ÖLMƏZLİK NÜMUNƏSİ





***44** günlük Vətən müharibəsində qazandığımız şanlı qələbəyə, böyük zəfərə aparan yol 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərindən keçir. Masallının Ərkivan qəsəbəsində dünyaya göz açmış mayor Anar Novruzov Aprel və Tovuz döyüşlərinin qəhrəmanıdır. Xidmət etdiyi "N" saylı hərbi hissədə igid kəşfiyyatçı "Akula" ləqəbi ilə tanınır, əlahiddə avtomatik qumbaraatan AQS-17-nin atası sayılırdı.*

Tovuz döyüşləri zamanı silahdaşları general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov və digərləri ilə bir yerdə döyüşüb, eyni vaxtda şəhidlik zirvəsinə yüksəliblər.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərdiyinə, xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Anar Gülverdi oğlu Novruzov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Bu günlərdə şəhid mayorun anadan olmasının 49-cu ildönümü ilə əlaqədar məzarı önündə anım mərasimi keçirilib. Tədbirdə igid kəşfiyyatçının gənclərə nümunə olan ömür yolundan, döyüşlərdə göstərdiyi şücaətdən, qəhrəmanlığından ətraflı danışılıb. Məktəblilərin ifasında şəhidə həsr olunmuş şeirlər səslənib, ruhuna dualar oxunub.

Masallı Dövlət Regional Kolleci və Nizami Gəncəvi adına Masallı Rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə istedadlı şair, yazıçı-publisist, Prezident təqaüdçüsü Güləmail Muradın şəhid mayor haqqında yazdığı "Akula ləqəbli kəşfiyyatçı" adlı kitabın təqdimat mərasimi keçirilib. Tədbirdə rayon rəsmiləri, yaradıcı ziyalılar, şəhidin ailə üzvləri, doğmaları, mədəniyyət işçiləri, rayon ictimaiyyəti və media nümayəndələri, gənclər iştirak ediblər.

**Masallı Dövlət Regional Kollecinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Rövşən Qurbanov** bildirib ki, Anar Novruzov Tovuz döyüşləri zamanı Vətənə sonsuz sevgisini, sədaqətini sübuta yetirib. Haqqında yazılmış kitabda Anarın həyat yolundan, Vətənə məhəbbətindən, igidliyindən, doğmalarının, döyüş yoldaşlarının xatirələrindən bəhs edilir.

**Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev** Anar Novruzovla eyni hərbi hissədə çiyin-çiyinə xidmət etdiyini vurğulayıb: "Mayor Anar Novruzov peşəkar hərbçi, mahir kəşfiyyatçı idi. Daim ön cəbhədə olur, ən çətin əməliyyatları nümunəvi zabit kimi yüksək məsuliyyətlə yerinə yetirirdi. Amalı layiqli oğul kimi Vətənə, dövlətə xidmət göstərmək, torpaqlarımızı namərd düşmənin işğalından azad etmək idi. Göstərdiyi qəhrəmanlıqlar bugünkü və gələcək nəsillər üçün örnəkdir. Haqqında qələmə alınmış kitab cəsur kəşfiyyatçının şərəfli ömür yolunu dolğun əks etdirir. Anarın əziz xatirəsi ürəklərdə daim yaşayacaqdır".

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair-publisist Güləmail Murad** müəllifi olduğu kitab barədə ətraflı məlumat verib. 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşləri şəhidlərinin qanlarının yerdə qalmadığını, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, ölkəmizin suverenliyinin tam bərpa olunduğunu, Azərbaycanın dünyada qalib dövlət kimi tanındığını bildirib. Kitabın ərsəyə gəlməsində şəhidin qardaşı Sücəddin Novruzovun köməyini minnətdarlıqla qeyd edib.

**Şair-publisist Elnur Uğur** kitabın məziyyətlərindən danışaraq qeyd edib ki, "Akula ləqəbli kəşfiyyatçı" təkcə qəhrəmanlıq salnaməsi deyil, həm də Ərkivan adlı qədim, ulu yurdumuzun tarixi, keçmişi, adət-ənənələri haqqında dolğun məlumatlar verir.

**Şəhidin qardaşı Sücəddin Novruzov** tədbirin təşkilatçılarına minnətdarlığını bildirib: "Bu gün çox qürurluyam. Bu kitabın yazılmasında sabiq millət vəkilimiz, mərhum Qənirə Paşayevanın təşəbbüsünü və xidmətlərini qeyd etmək yerinə düşər. Kitabın yazılmasında, nəfis şəkildə çap olunmasında Güləmail xanımın böyük zəhməti olmuşdur. Masallı Dövlət Regional Kolleci və rayon mədəniyyət mərkəzi tərəfindən çox gözəl tədbir hazırlanıb. Şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Sonra Masallı Dövlət Regional Kollecin tələbələrinin iştirakı ilə şəhidin xatirəsinə həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş olunub, vaxtilə təhsil aldığı Ərkivan qəsəbə 1 saylı tam orta məktəbin şagirdlərinin ifasında şeirlər, Nizami Gəncəvi adına Masallı Rayon Mədəniyyət Mərkəzinin solistləri Atamoğlan və Ruslan Zahidovların ifasında vətənpərvərlik mövzusunda mahnılar səslənib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika .- 2025.- 24 may (№107).- S.14.